UOT 37.01.

***Fidan Niyaz qızı Şahmalıyeva,***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# AZƏRBAYCAN TARİXİ FƏNN KURİKULUMU VƏ ONUN STRUKTURUNUN TƏHLİLİ

***Фидан Нияз гызы Шахмалиева,***
*Азербайджанский Государственный Педагогический Университет*

# ПРЕДМЕТНЫЙ КУРИКУЛУМ ПО ИСТОРИИ АЗЕРБАЙДЖАНА И АНАЛИЗ ЕЕ СТРУКТУРЫ

***Fidan Niyaz Shahmaliyeva,***
*Azerbaijan State Pedagogical University*

# THE CURRİCULUM OF THE HİSTORY OF AZERBAİJAN SUBJECT AND THE ANALYSİS OF İTS STRUCTURE

**Xülasə:** Məqalədə mövzunun aktuallığı əsaslandırılıb. Problemin işlənmə səviyyəsinə münasibət bildirilib. Tarix dərslərində Azərbaycan tarixi üzrə fənn kurrikulumlarının təhsil sistemində yeri, rolu və əhəmiyyəti vurğulanıb. Ümumtəhsil məktəblərində Azərbaycan tarixi üzrə fənn kurikulumlarının strukturunun təhlili əsaslı şəkildə əks olunub.

***Açar sözlər:*** *kurrikulum, təhsil, məzmun xətləri, proqram, bilik, fəaliyyət*

**Резюме:** В статье обоснована актуальность темы. Выраженно отношение к уровню обработки проблемы. Подчеркнуто место, роль и значение курикулума по Истории Азербайджана в образовательной системе. Был отражен анализ структуры куррикулума по Истории Азербайджана в обшеобразовательных школах.

***Ключевые слова:*** *курикулум, образование, содержательные линии, программа, знание, деятельность*

**Summary:** The actuality of the topic has been substantiated in the article. The using level of the problem has been taken attitude. The position, role and importance of the subject curriculum in the educational system in accordance with The History of Azerbaijan have been emphasized in the historical lessons. The analysis of the structure of subject curriculums of The History of Azerbaijan in comprehensive schools has been fundamentally reflected.

***Key words:*** *curriculum, education, content lines, software, knowledge, activities*

Təhsil cəmiyyət və dövlətin inkişafının əsasında durmaqla strateji əhəmiyyətə malik olan və üstün inkişaf etdirilən fəaliyyət sahəsidir. Müasir tarix təhsili gənc nəslin həyata hazırlanmasına və nümunəvi vətəndaşın formalaşmasına yönəldilib. Azərbaycan tarixi fənni ölkə ərazisində olan cəmiyyət və insanların həyatı, həmin insanların həyatında baş vermiş proses və hadisələri və onların səbəb və nəticə əlaqələrini öyrənən bir elm sahəsidir. Azərbaycan tarixi fənninin ümumtəhsil məktəblərində tədris edilməsi geniş intellektə, dünyagörüşünə, yüksək bilik, bacarıq və vərdişlərə sahib olan bir şəxsiyyət kimi yetişdirməyə, öz millətinin adət-ənənələrini, vətənini, milli-mənəvi dəyərlərini sevən vətəndaş ruhunda formalaşdırmağa kömək göstərir.

Azərbaycan təhsil sisteminə 90-cı illərdən başlayaraq yeni pedaqoji terminologiya daxil olmuşdur. Bu, “Kurikulum” adlanan pedaqoji terminologiya idi. Kurikulum təhsilin məzmununu, təşkili və qiymətləndirilməsi ilə bağlı bütün məsələləri özündə əks etdirən konseptual sənəddir. Kurikulumun əsasını təhlil, tərkib, tətbiq və qiy-

mətləndirmə təşkil edir. Kurikulum müasir dərs modelinin əsas çərçivələri üzrə fənlər kursunun hər bir bölməsinin məqsədini, məzmununu, tədris-təlim fəaliyyətini, nailiyyətlərini, onların qiymətləndirilməsini əks etdirir.

Fənn kurikulumları, mahiyyət etibarilə, cəmiyyət üçün hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşmasına imkan yaradan, cəmiyyətin tələblərinə cavab verən mühüm təhsil sənədi kimi nəticəyönlü, şəxsiyyətyönlü və inteqrativ xarakter daşıyır. Onların məzmunu şagird fəaliyyətinin ardıcıl olaraq izlənməsinə, nailiyyətlərin müntəzəm şəkildə qiymətləndirilməsinə imkan yaradır, təlim prosesi ilə gözlənilən nəticə arasında əks-əlaqə mexanizminin qurulmasına xidmət edir. Mütəxəssislərin də qeyd etdikləri kimi, 2010-2011-ci illərdə orta təhsil məktəblərinin V-XI siniflərində "Azərbaycan tarixi və ümumi tarixə tədris ili ərzində 595 saat vaxt" ayrılmışdır. Tam orta təhsildə Azərbaycan tarixi ilə ümumi tarix kursları məntiqi-xronoloji ardıcıllıqla öyrədilir. Müəllif qeyd edir ki, məktəbdə tarix fənninin tədrisinə ayrılan 595 saatın 391 saatı Azərbaycan tarixinə ayrılıb" [1, s. 79].

Azərbaycan tarixi fənninin tədrisində "Tarix müəllimlərinin işində rəhbər sənəd dövlət proqramıdır". Müəllif qeyd edir ki, bu proqram məktəbdə keçilən tarix kursunun məzmununu, onun problematikasını, materialın izahının dərinliyini və sistemini müəyyən edir. Azərbaycan tarixinin tədrisinə hazırlıq işinə, proqramı və proqrama dair izahat məktubunu öyrənməkdən başlayır. Proqramda təkcə tarix kursunun məzmunu deyil, eyni zamanda, materialın tədris illəri üzrə bölüşdürülməsi də, yəni məktəbdə keçilən Azərbaycan tarixi kursunun quruluşu, onun qurulmasının ümumi planı da nəzərdə tutulur" [2, s. 22].

2005-2006-cı tədris ilindən "VIII-XI siniflərdə Azərbaycan tarixi üzrə həftəlik dərs saatları artırıldı". Müəllif onu da qeyd edir ki, bu vaxta qədər Azərbaycan tarixi həftədə 2 saat idisə, indi əksinə oldu. Təkcə VIII sinifdə ilin birinci yarısında 2 saat, ikinci yarısında isə 1 saat müəyyənləşdirildi. Bu, vətən tarixini daha da dərindən öyrənmək imkanlarını daha da dərinləşdirdi". [3, s. 18].

Ümumiyyətlə, orta məktəbdə Azərbaycan tarixi təhsilinin müasir strukturu aşağıdakı kimidir:

V sinif (Ata yurdu) - həftədə 2 saat, il boyu 68 saat;

VI sinif - (Qədim dövr) həftədə 1(2) saat, il boyu 34(68) saat;

VII sinif - Orta əsrlər (III əsr - XI əsrin ortaları) - həftədə 1(2), il boyu 34(68) saat;

VIII sinif - Orta əsrlər (XI əsrin ortaları - XVII əsrin ortaları), həftədə - birinci yarım il – 2 (2), ikinci yarım il 1(2) saat, il boyu 51 saat (68) saat;

IX sinif – (XVII əsrin ikinci yarısı - XIX əsrin əvvəlləri) - həftədə 2(2), il boyu 68(68) saat;

X sinif - (XIX əsrin əvvəlləri - XX əsrin əvvəlləri), həftədə 2(4) saat, il boyu 68(136) saat;

XI sinif (1918-ci ildən – müasir günlərədək) - həftədə 2(5) saat, il boyu 68(153) saat."

Müəllif onu vurğulayır ki, " Azərbaycan tarixi" üzrə şagird:

1. Tarixi hadisələri xronoloji əsasda təsvir edir, onlar arasındakı səbəb və nəticə əlaqələrini izah edir;

2. Sivilizasiyaların formalaşmasında, dünya mədəniyyətinin, incəsənətinin inkişafında Azərbaycanın rolu və mövqeyi barədə mülahizələrini şərh edir;

3. Tarixi fakt və hadisələrə, tarixi şəxsiyyətlərə və onların fəaliyyətinə münasibət bildirir, onları müvafiq dövr baxımından qiymətləndirir" [4, s. 19-20].

Azərbaycan tarixi üzrə fənn kurikulumunda təlim prosesi elə təşkil olunur ki, şagird özü oxumağa təhrik olunur. Deməli, burada maraq, meyil təlim üçün əsas şərtdir. Bunun üçün əlverişli təlim şəraitinin yaradılması vacibdir. Xüsusilə, inkişafımızın müasir mərhələsində onun ən müasir avadanlıqlar əsasında yaradılması tələb olunur. Eyni zamanda, fəal təlim şəraitinin yaradılması təklif edilir. Elə buna görə də hər gün dərslərə hazırlaşarkən, ilk növbədə, hansı metoddan və iş formalarından istifadə edəcəyimi planlaşdırdım. Daha çox BİBÖ, Beyin həmləsi, Klaster, Ziqzaq, Venn diaqramı metodlarından, iş formalarına gəldikdə isə fərdi, cütlərlə, qruplarla, bütün siniflə iş və rollu oyunlardan istifadə edirdim. Təcrübə əsasında müəyyən etdim ki, şagirdlərim qruplarla iş və rollu oyunlar zamanı daha fəal olurlar. Dərs prosesində qruplarla i, bir təcrübəçi müəllimə kimi, məni də çox qane edir-

di. Çünki qrup şəklində iş hər bir şagirdin idrak prosesinə cəlb edilməsini təmin edir. Hər bir şagirdə öz fikrini söyləmək və başqalarını dinləmək imkanı verir. Şagirdlərlə problemin həllində müxtəlif baxışların, yanaşma və metodların mövcudluğunu göstərir. Ən əsası isə öz imkanlarını dərk etmək və qiymətləndirmək üçün əlverişli şərait yaradır.

Azərbaycan tarixi dərslərində istifadə olunan fənn kurikulumunda nəzərdə tutulur: tarix üzrə məzmun xətləri. Məzmun xətləri də, öz növbəsində, əsas və alt standartlara bölünür. Standart dərslikdə bu şəkildə reallaşır: ən birinci standart, sonra tədris vahidi, bölmə, mövzu. Mövzuya daxildir: məzmun, şəkil, sxem, cədvəl, xəritə, illüstrasiya, test, sual, tapşırıq, çalışma, lüğət materialı, valideyn üçün tövsiyə, açar sözlər. Yeni dərsliklər təlim marağını gücləndirməli, zəngin olmalı, şagirdləri axtarışlara sövq etməlidir. Azərbaycan tarixi üzrə fənnin əsas məqsədi şagirdlərdə vətənpərvərlik, digər xalqlara, milli dəyərlərə hörmət, dövlətçilik əlaqələrinə sədaqət hissi formalaşdırmaq üçün fakt və hadisələri ümumiləşdirmək, təhlillər aparmaq, sərbəst nəticələr çıxartmaqdan ibarətdir.

**Mövzunun aktuallığı**. Azərbaycan tarixi üzrə fənn kurikulumunun məzmunu və strukturunun öyrənilməsi nəticəsində müəyyən etdik ki, bu vaxta qədər bu mövzu tədqiqat obyekti kimi seçilmədiyi üçün bu sahədə bir boşluq var. Həmin boşluğun doldurulmasına çox böyük ehtiyac var.

**Nəticə olaraq deyə bilərik ki,** Azərbaycan tarixi fənn kurikulumu və onun strukturunun təhlilindən aydın olur ki, Azərbaycan tarixi üzrə fənn kurikulumunda məzmun xətləri və müəyyən edilmiş standartlar həmin fənnin tədrisinin təkmilləşməsinə motiv yaradır.

**Mövzunun nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, məqalədə irəli sürülən müddəa və yeniliklər tarixin tədrisi metodikası elmini yetərincə zənginləşdirir.

**Mövzunun praktik əhəmiyyəti** ondan ibarətdir ki, məqalənin məzmununda və əldə olunan nəticələrindən ümumtəhsil məktəblərinin tarix müəllimləri istifadə edə bilərlər.

**Ədəbiyyat:**

1. Əmirov M.M. Tam orta məktəbdə tarixin fəal-interaktiv təlimi metodikası. Bakı, 2014..
2. Vagin A.A. Orta məktəbdə tarixin tədrisi metodikası. Bakı, 1973.
3. Vagin A.A. Orta məktəbdə tarixin tədrisi metodikası. Bakı, 1973.
4. Cəbrayılov Z.H. Azərbaycan tarixinin tədrisi metodikası. Bakı, 2006.

**E-mail:** fidanshahmaliye96@gmail.com
**Rəyçilər**: *tarix ü. elm. dok., dos*. R.Ə. Əliyev
*ped. ü. elm. dok., prof*. M.M. Əmirov
**Redaksiyaya daxil olub:** 12.11.2018